# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 sentyabr tarixli 264 nömrəli, 15 oktyabr tarixli 312 nömrəli və 28 oktyabr tarixli 320 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı” üzrə:

1.1. on ikinci sətirdə “təşkilatlarla əməkdaşlıq” sözləri “təşkilatlara üzvlük haqqı” sözləri ilə əvəz edilsin;

1.2. on üçüncü sətirdə “institutları ilə əməkdaşlıq” sözləri “institutlarının səhm kapitalında iştirak” sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

2.1. "1.2.0. Beynəlxalq münasibətlər" köməkçi bölməsində "1.2.1. Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq" sözləri "1.2.1. Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı" sözləri ilə, "1.2.2. Beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq" sözləri "1.2.2. Beynəlxalq və regional maliyyə institutlarının səhm kapitalında iştirak" sözləri ilə əvəz edilsin;

2.2. "1.2.1. Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq" paraqrafının adında "təşkilatlarla əməkdaşlıq" sözləri "təşkilatlara üzvlük haqqı" sözləri ilə əvəz edilsin və həmin paraqrafdan "və ianə" sözləri çıxarılsın;

2.3. "1.2.2. Beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq" paraqrafının adında "institutları ilə əməkdaşlıq" sözləri "institutlarının səhm kapitalında iştirak" sözləri ilə əvəz edilsin;

2.4. "1.3.0. Xarici ölkələrə yardımlar" köməkçi bölməsində "1.3.0. Xarici ölkələrə yardımlar" sözləri "1.3.0. Xarici yardımlar" sözləri ilə əvəz edilsin;

2.5. "4.1.0. Məktəbəqədər təhsil" köməkçi bölməsində "4.1.0. Məktəbəqədər təhsil" sözlərindən sonra "köməkçi bölməsinə" sözləri əlavə edilsin;

2.6. "4.2.4. İnternat və xüsusi məktəblər" paraqrafından "uşaq və ailəyə dəstək mərkəzlərinin," sözləri çıxarılsın;

2.7. "6.2.3. Uşaq evləri" paraqrafına "ailə tipli kiçik qrup evlərinin" sözlərindən sonra ", uşaq və ailəyə dəstək mərkəzlərinin" sözləri əlavə edilsin;

2.8. "9.2.0. Baytarlıq" köməkçi bölməsinə "laboratoriyalarının saxlanılması," sözlərindən sonra "özəl baytarlıq subyektləri tərəfindən göstərilən xidmətlərin haqqının ödənilməsi," sözləri əlavə edilsin;

2.9. "10.7.2. Çirkab sularının yığılması və təmizlənməsi" paraqrafına aşağıdakı məzmunda yeni dördüncü abzas əlavə edilsin, dördüncü və beşinci abzaslar müvafiq olaraq beşinci və altıncı abzaslar hesab edilsin:

" - şəhər və rayon mərkəzlərində qrunt sularının təmizlənməsi ilə bağlı xərclər;";

2.10. "11.2.4. Turizm" paraqrafında "və nəşri" sözləri ", nəşri və subsidiya verilməsi" sözləri ilə əvəz edilsin;

2.11. "11.4.3. Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"11.4.3. Dövlət əsaslı vəsait qoyuluşu" paraqrafına obyektlərin tikintisi, bərpası, yenidən qurulması, əsaslı təmiri və yeni güclərin istifadəyə verilməsi ilə bağlı xərclər daxildir. Bu paraqrafa, həmçinin tikinti aparılacaq sahələrdə mövcud obyektlərin söküntüsü ilə bağlı xərclər, yeni tikilmiş, bərpa olunmuş, əsaslı təmir edilmiş obyektlərin mebel, inventar və avadanlıqla təchiz olunması, həmin obyektlərin ərazilərinin abadlaşdırıl-

ması, dövlət ehtiyacları üçün tikinti altına düşən torpaq və digər obyektlərin özgəninkiləşdirilməsi, layihə-smeta sənədlərinin hazırlanması, müəllif nəzarəti və texniki nəzarət xidmətləri ilə bağlı xərclər, xaricdən cəlb edilmiş kredit, qrant və digər vəsaitlər hesabına həyata keçirilən layihələrdə dövlətin iştirak payı ilə əlaqədar və bu qəbildən olan digər xərclər daxildir.”.

3. Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı”nın “222100. Cari təmir” paraqrafında “Nəqliyyat vasitələrinin cari təmir xərcləri” maddəsinin “221120” təsnifat kodu “222120” təsnifat kodu ilə əvəz edilsin.

4. Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə” üzrə:

4.1. “210000. Əməyin ödənişi” bölməsində “Əməkhaqqı üzrə işəgötürənlərin ödənişləri” sözləri “Əməkhaqqına görə ayırmalar” sözləri ilə əvəz edilsin;

4.2. “212000. Əməkhaqqına ayırmalar” köməkçi bölməsinin adına “Əməkhaqqına” sözündən sonra “görə” sözü əlavə edilsin;

4.3. “221100. Dəftərxana və təsərrüfat xərcləri” paraqrafından “, həmçinin bu qəbildən digər xərclər” sözləri çıxarılsın və həmin paraqrafa “katriclərin” sözündən sonra “, kompüter və digər ofis avadanlıqları üçün aksesuarların, kalkulyatorların, həmçinin təmizlik vasitələri və bu qəbildən olan digər təsərrüfat mal-materiallarının” sözləri əlavə edilsin;

4.4. 221400. Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması” paraqrafında “, müayinələrin aparılması üçün” sözləri “və” sözü ilə əvəz edilsin və həmin paraqrafdan “öz laboratoriyası olmadığı halda digər müəssisələrdə aparılan müayinələrə,” sözləri çıxarılsın;

4.5. “221900. Digər malların alınması” paraqrafına “digər alışlarla bağlı xərclər” sözlərindən sonra “, habelə Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəlikləri üzrə 221100-cü, 221200-cü və 221500-cü paraqraflarına aid və 221100-221600-cü paraqraflarında qeyd olunmayan digər alışlarla bağlı xərclər” sözləri əlavə edilsin;

4.6. “222290. Digər kommunal xidmətlərin haqqının ödənilməsi” maddəsindən “hündürmərtəbəli inzibati və digər təyinatlı binalarda şüşələrin yuyulması,” sözləri çıxarılsın;

4.7. “222440. Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri” maddəsinə “fasadlarının” sözündən sonra “, şüşələrinin” sözü əlavə edilsin;

4.8. “222442. Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri” yarımmaddəsinə “fasadlarının” sözündən sonra “, şüşələrinin” sözü, “digər xərclər” sözlərindən sonra “, həmçinin 222441-ci yarımmaddəsi üzrə Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəliklərinə aid olan xərclər” sözləri əlavə edilsin;

4.9. “222700. Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi” paraqrafı aşağıdakı redaksiyada verilsin:

“222700. Elmi tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqının ödənilməsi” paraqrafına elmi tədqiqat işlərinin, təcrübələrin, müayinələrin, təcrübi eksperimental işlərin, müəssisə və təşkilatlar üçün kənar təşkilatlar tərəfindən yerinə yetirilən xidmətlərin, həmçinin statistik, metroloji, ekoloji, tibbi təcrübələrin, tədqiqat və müayinələrin aparılması, keçirilməsi və bu qəbildən olan digər iş və xidmətlərin haqqının ödənilməsi ilə bağlı xərclər daxildir.”;

4.10. “222900. Digər iş və xidmətlərin haqqının ödənilməsi” paraqrafında “222970. Məhkəmə prosesi ilə bağlı xidmətlərin ödənilməsi” sözləri “222970. Məhkəmə və mediasiya prosesi ilə bağlı xidmətlərin ödənilməsi” sözləri ilə əvəz edilsin;

4.11. “222920. İstehlakyönlü müxtəlif xidmətlər” maddəsinə birinci halda “iştirak xərcləri,” sözlərindən sonra “qonaqların qəbulu və onlara xidmət göstərilməsi xərcləri,” sözləri əlavə edilsin və həmin maddədə “məktəbəqədər təhsil müəssisələrinin hazır yemək təminatının ödənilməsi” sözləri “qanunvericiliyə uyğun olaraq hazır yemək təminatı olan təhsil müəssisələrində müvafiq təminatın ödənilməsi xərcləri” sözləri ilə əvəz edilsin;

4.12. “318200. Yeraltı aktivlər və digər təbii aktivlər” paraqrafına “aktivlərin alınması” sözlərindən sonra “, həmçinin yerin təkindən istifadəyə görə ödənişlər” sözləri əlavə edilsin.

5. Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı” yeni redaksiyada verilsin (əlavə olunur).

6. Bu Qərarın 4.4-cü və 4.7-4.9-cu bəndləri 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 noyabr 2021-ci il

№ 351

## Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı

| Sıra №-si | Baş Kredit sərəncamçıları | Kod |
|---|---|---|
| 1 | 2 | 3 |
| | **Qanunvericilik orqanları** | |
| 1. | Azərbaycan Respublikasının Milli Məclisi | 1101 |
| 2. | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 1102 |
| | **Yuxarı icra hakimiyyəti orqanları** | |
| 3. | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 1201 |
| 4. | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 1202 |
| 5. | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | 1252 |
| | **Azərbaycan Respublikasının nazirlikləri, xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları** | |
| 6. | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 1203 |
| 7. | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 1207 |
| 8. | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi | 1205 |
| 9. | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 1265 |
| 10. | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 1208 |
| 11. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 1210 |
| 12. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 1209 |
| 13. | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 1221 |
| 14. | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 1253 |
| 15. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 1213 |
| 16. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 1218 |
| 17. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1219 |
| 18. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 1217 |
| 19. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi | 1216 |
| 20. | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 1212 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 21. | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1215 |
| 22. | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 1214 |
| 23. | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 1204 |
| | **Azərbaycan Respublikasının dövlət komitələri** | |
| 24. | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1225 |
| 25. | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 1224 |
| 26. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1227 |
| 27. | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 1223 |
| 28. | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1231 |
| 29. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 1230 |
| 30. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 1232 |
| | **Digər hüquqi şəxslər** | |
| 31. | Azərbaycan İnvestisiya Holdinqi | 1891 |
| 32. | Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkəti | 1528 |
| 33. | “Mir” Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Milli Nümayəndəliyi | 1502 |
| | **Xidmətlər** | |
| 34. | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 1268 |
| 35. | Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti | 1880 |
| 36. | Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | 1881 |
| 37. | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti | 1296 |
| 38. | Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti | 1297 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 39. | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti | 1238 |
| 40. | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 1451 |
| 41. | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 1482 |
| 42. | Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti | 1247 |
| 43. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 1211 |
| 44. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 1264 |
| 45. | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 1274 |
| 46. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti | 1277 |
| 47. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 1278 |
| 48. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti | 1292 |
| 49. | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 1462 |
| 50. | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 1477 |
| 51. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 1855 |
| 52. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 1861 |
| 53. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 1862 |
| 54. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 1863 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 55. | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1864 |
| 56. | Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti | 1867 |
| 57. | Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti | 1870 |
| 58. | Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti | 1874 |
| 59. | Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Təminat Xidməti | 1877 |
| 60. | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti | 1256 |
| | **Fondlar** | |
| 61. | Azərbaycan Respublikasının Dövlət Neft Fondu | 1702 |
| 62. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu | 1701 |
| 63. | Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu | 1572 |
| 64. | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu | 1533 |
| 65. | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 1542 |
| 66. | Aqrar Sığorta Fondu | 1876 |
| 67. | Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu | 1521 |
| 68. | Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu | 1549 |
| 69. | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu | 1847 |
| 70. | Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu | 1519 |
| 71. | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 1520 |
| 72. | Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu | 1829 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 73. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 1535 |
| 74. | Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları | 1540 |
| | **Səhmdar Cəmiyyətlər** | |
| 75. | “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti | 1404 |
| 76. | “Azərsu” Açıq Səhmdar Cəmiyyəti | 1530 |
| 77. | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 1235 |
| 78. | “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti | 1529 |
| 79. | “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti | 1458 |
| 80. | “Aqroservis” Açıq Səhmdar Cəmiyyəti | 1531 |
| 81. | “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti | 1823 |
| | **Məhkəmə və hüquq mühafizə orqanları** | |
| 82. | Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi | 1301 |
| 83. | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 1302 |
| 84. | Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən məhkəmə hakimiyyəti orqanları | 1314 |
| 85. | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 1316 |
| 86. | Bakı Apellyasiya Məhkəməsi | 1317 |
| 87. | Gəncə Apellyasiya Məhkəməsi | 1318 |
| 88. | Sumqayıt Apellyasiya Məhkəməsi | 1319 |
| 89. | Şirvan Apellyasiya Məhkəməsi | 1320 |
| 90. | Şəki Apellyasiya Məhkəməsi | 1321 |
| 91. | Maliyyə təminatı Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən məhkəmələr | 1322 |
| 92. | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) | 1313 |
| 93. | Azərbaycan Respublikasının Baş Prokurorluğu | 1311 |
| 94. | Azərbaycan Respublikasının Hərbi Prokurorluğu | 1312 |
| 95. | Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən prokurorluq orqanları | 1315 |

| 1 | 2 | 3 |
|---|---|---|
| | **Nəqliyyat təşkilatları** | |
| 96. | “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti | 1423 |
| 97. | “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti | 1590 |
| 98. | “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti | 1407 |
| 99. | “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti | 1406 |
| | **İdarələr** | |
| 100. | Milli Arxiv İdarəsi | 1244 |
| 101. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi | 1245 |
| 102. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Mənzil-Kooperativ Təsərrüfatı İdarəsi | 1284 |
| 103. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Bakı Şəhər Ticarət və Xidmət Departamenti | 1285 |
| 104. | Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi | 1287 |
| 105. | Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 1826 |
| 106. | Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi | 1827 |
| 107. | Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi | 1873 |
| 108. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi | 1908 |
| 109. | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi | 1865 |
| | **Komissiyalar** | |
| 110. | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 1402 |
| 111. | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 1233 |
| 112. | Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyi | 1429 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 113. | Dairə seçki komissiyalarının saxlanılması | 1460 |
| 114. | Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu | 1248 |
| 115. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyi | 1249 |
| 116. | Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu | 1250 |
| | **Agentliklər** | |
| 117. | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1487 |
| 118. | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 1819 |
| 119. | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 1840 |
| 120. | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1279 |
| 121. | Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi | 1269 |
| 122. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 1272 |
| 123. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi | 1273 |
| 124. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi | 1442 |
| 125. | Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 1452 |
| 126. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi | 1478 |
| 127. | Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi | 1554 |
| 128. | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 1818 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 129. | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 1849 |
| 130. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 1853 |
| 131. | Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 1828 |
| 132. | Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi | 1882 |
| 133. | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 1259 |
| | **Mərkəz və şuralar** | |
| 134. | Heydər Əliyev Mərkəzi | 1473 |
| 135. | Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası | 1405 |
| 136. | Azərbaycan Respublikasının Milli Mətbuat Şurası | 1427 |
| 137. | Məhkəmə-Hüquq Şurası | 1428 |
| 138. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi | 1444 |
| 139. | Beynəlxalq Muğam Mərkəzi | 1463 |
| 140. | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi | 1468 |
| 141. | Azərbaycanda Atatürk Mərkəzi | 1503 |
| 142. | “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi | 1525 |
| 143. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1496 |
| | **Palatalar** | |
| 144. | Azərbaycan Respublikasının Hesablama Palatası | 1401 |
| | **Elm və ali təhsil müəssisələri** | |
| 145. | Azərbaycan Milli Elmlər Akademiyası | 1413 |
| 146. | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi | 1415 |
| 147. | Milli Aviasiya Akademiyası | 1904 |
| 148. | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | 1422 |
| 149. | Bakı Dövlət Universiteti | 1418 |
| 150. | Azərbaycan Tibb Universiteti | 1419 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 151. | "ADA" Universiteti | 1443 |
| 152. | İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı | 1812 |
| 153. | M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı | 1457 |
| | **İctimai təşkilatlar, istehsalat birlikləri və digər təşkilatlar** | |
| 154. | İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri | 1892 |
| 155. | Yerli icra hakimiyyəti orqanları | 1251 |
| 156. | Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatlar | 1424 |
| 157. | Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyi | 1263 |
| 158. | "Bakı Konqres Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1843 |
| 159. | "Bakı Kristal Zalı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1497 |
| 160. | "Araz" Elmi-İstehsalat Birliyi | 1527 |
| 161. | "Azərbaycan" Nəşriyyatı | 1550 |
| 162. | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası | 1546 |
| 163. | Azərbaycan Respublikasının Vəkillər Kollegiyası | 1860 |
| | **Digər tədbirlər** | |
| 164. | Səfərbərlik ehtiyatları anbarları | 1425 |
| 165. | Ehtiyat idarəetmə məntəqələri | 1426 |
| 166. | Dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 1431 |
| 167. | Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 1432 |
| 168. | Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1433 |
| 169. | Mərkəzləşdirilmiş kredit resursları üzrə Mərkəzi Bankın silinmiş əsas borcunu bağlamaq məqsədilə buraxılan istiqraz vərəqələri | 1436 |
| 170. | Dövlət istiqraz vərəqələri | 1437 |
| 171. | 1992-1996-cı illərdə dövlət büdcəsinin kəsirinin örtülməsi üçün Mərkəzi Bankdan istifadə edilmiş mərkəzləşdirilmiş kredit resursunu qaytarmaq məqsədilə buraxılan istiqraz vərəqələri | 1438 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 172. | Dövlət xarici borclarının ödənilməsi | 1440 |
| 173. | Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər | 1441 |
| 174. | Xarici kreditlər | 1447 |
| 175. | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi | 1453 |
| 176. | Seçici siyahılarının dəqiqləşdirilməsi | 1459 |
| 177. | Yerli xərclərdə nəzərdə tutulmayan sosial-iqtisadi və digər təyinatlı tədbirlərin maliyyələşdirilməsi | 1461 |
| 178. | Su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı bələdiyyələrə verilən maliyyə yardımı | 1476 |
| 179. | Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı | 1486 |
| 180. | Qeyri-dövlət təşkilatlarına verilən maliyyə yardımı | 1491 |
| 181. | Müfəssəl ərazi planlaşdırılması sənədlərinin hazırlanması | 1494 |
| 182. | Dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı | 1548 |
| 183. | Yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurulması və abadlaşdırılması | 1553 |
| 184. | Kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 1555 |
| 185. | Maddi-texniki təminatın möhkəmləndirilməsi | 1560 |
| 186. | Dövlət ehtiyatlarının yaradılması | 1562 |
| 187. | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər | 1567 |
| 188. | Radio və televiziya redaksiyalarının saxlanılması | 1569 |
| 189. | Xarici qrantlar hesabına həyata keçirilən layihələr | 1573 |
| 190. | Dövlətdən sosial yardım alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 1575 |
| 191. | Dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər | 1576 |
| 192. | Sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 1594 |
| 193. | Siyasi partiyalara verilən maliyyə yardımı | 1596 |
| 194. | Nəqliyyat və rabitə sahələrində islahatların aparılması və digər tədbirlərin maliyyələşdirilməsi | 1598 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 195. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 1601 |
| 196. | Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya | 1602 |
| 197. | Yerli büdcələrə (bələdiyyələrə) verilən subvensiya | 1604 |
| 198. | Yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsait | 1603 |
| 199. | Əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər | 1801 |
| 200. | Sosial müdafiə, pensiya və digər sosial təminat | 1802 |
| 201. | Səhiyyə sahəsinə aid digər tədbirlər | 1803 |
| 202. | Maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1807 |
| 203. | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 1808 |
| 204. | Dövlət daxili borclarının ödənilməsi ilə bağlı xərclər | 1810 |
| 205. | Beynəlxalq idman tədbirlərinin keçirilməsi, hazırlıq və digər təşkilati işlər | 1813 |
| 206. | Nəqliyyat sahəsi üzrə islahatların aparılması və digər tədbirlər | 1821 |
| 207. | Qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlər | 1830 |
| 208. | İpoteka və sosial mənzillərin tikintisi | 1832 |
| 209. | İslahatlarla bağlı xərclər | 1835 |
| 210. | Bir sıra dövlət müəssisələrində islahatların aparılması ilə bağlı texniki iqtisadi əsaslandırmanın hazırlanması | 1837 |
| 211. | Sahibkarlığa dəstək sahəsində islahatların aparılması | 1854 |
| 212. | Publik hüquqi şəxslərə dövlət büdcəsindən vəsait ayrılması | 1869 |
| 213. | Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi | 1872 |
| 214. | İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası, dövlət təltiflərinin hazırlanması | 1875 |
| 215. | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlər | 1878 |
| 216. | İqtisadi dəstək tədbirləri | 1879 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 217. | Qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması və icbari tibbi sığorta tətbiq olunmayan inzibati ərazi vahidləri üzrə səhiyyə müəssisələri | 1883 |
| 218. | Su anbarlarının və hidroqovşaqların texniki təhlükəsizliyinin qiymətləndirilməsi və bu qəbildən olan digər tədbirlər | 1885 |
| 219. | Dövlət zəmanəti verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması | 1901 |
| 220. | Koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə | 1903 |
| 221. | İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 1905 |
| 222. | Problemli kreditlərin həlli ilə bağlı malıyyə təminatı | 1906 |
| 223. | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 1907 |